**Təhsil insanı kamilləşdirir, müdrikləşdirir. Məktəbəqədər tərbiyə ocaqlarından başlanan bu proses əvvəlcə orta, sonra isə texniki -peşə, ali-orta, ali təhsil pilləiləri, elm ocaqları ilə əvəzlənir və nəticədə gənclərimiz müxtəlif peşələrə və ixtisaslara yiyələnərək mənəviyyatca da saflaşır, müdrikləşir, təmsil olunduğu cəmiyyətin də faydalı üzvlərinə çevrilə bilir. Bunun üçünsə seçdiyin ixtisas ürəyincə olmalıdır, sonda səni sevdiyin peşəyə qovuşdurmalıdır. Haqqında söhbət açdığımız Aysel İbrahimova da bu il ali məktəbə qəbul olunanlar, ən böyük arzusuna qovuşanlar sırasındadır. Artıq tələbə adını qazanan bu gənc qızın söylədiyinə görə, imtahanın nəticələrinə uyğun olaraq seçdiyi ixtisas ürəyincədir və buna heç vaxt peşman da olan deyil.**



# "Müəllimlik peşəsinə yiyələnmək ən böyük arzum idi"

## BDU-nun mexanika - riyaziyyat fakültəsinin tələbəsi Aysel İbrahimovanın uğur hekayəsi

"Həyatımın ən sevincli anlarını bu xoş xəbəri eşidəndə yaşadım. Müəllimlik peşəsinə yiyələnmək ən böyük arzum idi. Bu müqəddəs arzuma qovuşduğuma görə heç vaxt peşman olmayacağam. Ən mötəbər bir universitetin geniş və işıqı auditoriyalarında ali təhsilimi davam etdirməyi, tanınmış alimlərdən, pedaqoqlardan dərs alaraq riyaziyyat kimi maraqlı bir elmin sirlərinə yiyələnmək şansımı mənə heç nə əvəz edə bilməzdi.

Artıq tələbə adını daşıdığımdan saylı günlər keçib. Bu qısa müddətdə yaşadığım hisslər, bütün təmaslardan aldığım təəssüratlar barədə inanın ki, bir kitab yazmaq olar. İndi oxuduğum təhsil ocağının ərazisi geniş, özü möhtəşəm, auditoriyaları daha işıqlı və yaraşıqlıdır. Sinif yoldaşlarımı tələbə yoldaşlarım, orta məktəb müəllimlərimi ali məktəb pedaqoqları əvəzləyib. Artıq tələbə qızların arasında özümə ürək dostları, xarakterimə uyğun rəfiqələr də qazanmışam. Bir sözlə, bu gün mən bambaşqa bir aləmdəyəm, necə deyərlər, arzularımın qanadında pərvazlanıram."



Bu sözləri Xaçmaz rayonu üzrə ən yüksək bal toplayan Aysel İbrahimovanın dilindən eşitmək necə də xoş idi. Buraxılış və ali məktəblərə qəbul imtahanlarının nəticələrinə görə o, bu il 648,2 bal toplayaraq Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin tələbəsi adını qazanıb.

Aysel Xaçmaz şəhər Cəfər Cabbarlı adına 6 nömrəli tam orta məktəbin məzunudur. Olduqca çalışqan şagird olub. Bütün fənlərə eyni həvəslə, eyni tələbkarlıqla yanaşıb, ancaq riyaziyyat fənnini hədsiz dərəcədə sevib. Bunu onun ixtisas seçimində birinci olaraq müəllimliyi göstərməsi bir daha sübut edir. Tələbə qızın söyədiklərini həyəcansız dinləmək mümkün deyil. Danışdıqca sanki qanad açıb uçacaqdı: "Buraxılış imtahanlarında 266,7, qəbul imtahanında isə 381,5 bal toplayaraq uşaqlıq arzuma qovuşdum. Hələ aşağı siniflərdə oxuyanda məndə müəllim, daha doğrusu riyaziyyat müəllimi olmaq arzusu baş qaldırmışdı". Artıq təhsilin ali pilləsinə yenicə qədəm qoyan bu gənc tələbə qız özünü həyatda ancaq müəllim kimi görmək arzusunda olduğunu cəsarətlə ifadə edir. O, başqa peşə və ixtisaslardan fərqli olaraq müəllimin ancaq öyrətmək və təlqin etmək, eləcə də tərbiyə etmək kimi müqəddəs bir vəzifəni yerinə yetirməsini insanlıq üçün ən vacib amil sayır. Deyir ki, müqəddəs kitablarımızda xüsusilə vurğulanan, dahilərimizin dilindən vərəqlərə hopan müdrik kəlamlar müəllimlik peşəsinin ülviliyinə və olduqca vacibliyinə ən böyük işarədir. "Təhsil millətin gələcəyidir" və "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram" kimi müdrik kəlamların mahiyyətini dərindən dərk etdiyini vurğulayan Aysel İbrahimova bu dərin məzmunlu fikrin Ulu Öndər Heydər Əliyevə məxsus olduğunu da qürurla ifadə etdi və dedi ki, dahi şəxsiyyətin təhsil, elm haqqında söylədikləri biz gələcəyin müəllimləri üçün ən vacib fəaliyyət proqramıdır.

- "Sevindirici haldır ki, regionlarda tədrisin keyfiyyəti gündən- günə yüksəlir və bu danılmaz həqiqət hər il ali məktəblərə qəbul imtahanları prosesində təsdiqlənməkdədir". - Bu sözləri Ayselin təhsil aldığı məktəbin direktor müavini Namik Müzəffərovun dilindən eşitdik. Təkcə bu il Aysel İbrahimovanın təhsil aldığı Xaçmaz şəhər Cəfər Cabbarlı adına 6 nömrəli tam orta məktəbdən 60 nəfərdən çox məzun tələbə adını qazanıb. Onların müəyyən qismi Türkiyə və digər xarici ölkələrin ali məktəblərində təhsillərini davam etdirmək hüququna sahib olub. Gənc tələbəyə - Aysel İbrahimovaya ali məktəb illərində uğurlar diləyirik.

**Sifai SƏFƏROVA**